© N.H.Əyyubov, 2008

# AZƏRBAYCANDA ƏHALİ MƏSKUNLAŞMASININ TƏKMİLLƏŞDİRİLMƏSİNİN İQTİSADİ-COĞRAFİ İSTİQAMƏTLƏRİ

**N.H.Əyyubov**

*Azərbaycan MEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*
*AZ1143, Bakı, H.Cavid prosp., 31*

Məqalədə Azərbaycan Respublikasında əhalinin məskunlaşması xüsusiyyətləri təhlil olunur, iqtisadi-coğrafi rayonlar üzrə əhali–ərazi nisbətləri əsas götürülərək ərazinin mənimsənilmə, məskunlaşma səviyyələri araşdırılır. Ümumiyyətlə, ölkədə əhalinin daha səmərəli məskunlaşdırılması əsaslandırılır və konkret olaraq ayrı-ayrı iqtisadi-coğrafi rayonların spesifik xüsusiyyətlərinə uyğun bu prosesin təkmilləşdirilməsi istiqamətləri müəyyənləşdirilir.

İstehsalın səmərəli ərazi təşkili, ictimai-iqtisadi formasiyadan asılı olmayaraq, hər hansı bir ölkədə iqtisadi və sosial inkişafın, xalqın maddi rifah halının yaxşılaşdırılmasının mühüm şərtlərindən biridir. Məhsuldar qüvvələrin ölkə ərazisində səmərəli yerləşdirilməsi sosial-iqtisadi inkişafla yanaşı, həm də mühüm strateji hərbi-siyasi əhəmiyyət kəsb edir. Ona görə də bütün sivil ölkələr istehsalın səmərəli ərazi təşkilinə böyük diqqət yetirir, bu prosesi ümumi dövlət nəzarəti altında saxlayır, onun idarə olunması üçün tədbirlər kompleksi görürlər.

Keçmiş SSRİ məkanında da planlı sosialist təsərrüfatçılığı şəraitində, əhalinin səmərəli ərazi təşkili məsələlərinə ümumi dövlət səviyyəsində diqqət yetirilirdi. Elmi-nəzəri müddəaları Moskva və Leninqrad alimləri tərəfindən işlənən konsepsiyalar əsasında istehsalın ölkə ərazisində yerləşdirilməsini təkmilləşdirməklə əhalinin də səmərəli ərazi təşkili, məskunlaşdırılması müəyyən dərəcədə idarə olunurdu. Vahid məskunlaşma sistemi nəzəriyyəsi kontekstində əhalinin İttifaq və onun hissələri olan müttəfiq respublikalar ərazisində yerləşməsinin optimallaşdırılmasına çalışılırdı. Lakin planlı təsərrüfat sisteminin dağılması, keçid dövrünün çətinlikləri bu həyati əhəmiyyət kəsb edən vacib məsələnin əhəmiyyətli dərəcədə unudulmasına, demək olar ki, kortəbii inkişafına səbəb oldu.

Qeyd etmək lazımdır ki, hətta inkişaf etmiş kapitalist ölkələrində belə əhalinin və istehsalın ərazidə yerləşməsinin ölkənin ümumi strateji mənafeyinə müvafiq təkmilləşdirilməsi aspektində dövlət səviyyəsində əməli tədbirlər görülür. Məsələn, ABŞ mərkəzinin, İtaliya cənubunun, Türkiyə şərqinin daha sürətli sosial-iqtisadi inkişaf etdirilməsi siyasəti yürüdür, həmin ərazilərdə yeni təsərrüfat sahələrinin inkişafını maliyyələşdirir, əhalinin bu ərazilərdə daha intensiv məskunlaşması üçün sosial, inzibati və iqtisadi tədbirlər kompleksi həyata keçirirlər.

Qarabağ münaqişəsinin başlanması, Ermənistanın Azərbaycan torpaqlarının 20%-dən çoxunu işğal etməsi, Qərbi Azərbaycandan – indiki Ermənistandan yerli azəri türklərinin deportasiya olunması və işğal olunmuş ərazilərdən 1 milyondan çox qaçqın ordusunun yaranması, Mərkəzi Asiyadan qovulan 50 mindən artıq məhsəti türklərinin də respublikaya pənah gətirməsi, SSRİ-nin dağılması ilə əlaqədar yaranan çətinliklər və s. ölkəni iqtisadi böhrana düçar etməklə istehsalın ərazi təşkili prosesini daha da mürəkkəbləşdirmiş, əhalinin yerləşməsində, məskunlaşmasında neqativ meyillərə səbəb olmuşdur.

Bu hadisələr iqtisadi və sosial inkişafın əsasını təşkil edən demoqrafik prosesin də kəskin dəyişilməsinə səbəb olmuşdur. Ən qısa müddət ərzində doğum göstəricisinin kəskin azalması, ölüm əmsalının isə, demək olar ki, dəyişməz qalması nəticəsində təbii artım da xeyli azalmışdır. Məsələn, 1990-cı ildə hər 1000 nəfərə doğum 26,3, ölüm 6,1, təbii artım 20,2 olmuşsa, 2004-cü ildə bu rəqəmlər 16,1, 6,1 və 10,0 nəfər təşkil etmişdir. Təhlil olunan dövrdə xarici ölkələrlə mexaniki hərəkət balansı mənfi olmuşdur.

Məhsuldar qüvvələrin yerləşməsindəki qeyri səmərəlilik daha da artmışdır. Dağlıqla düzən, ölkənin digər regionları ilə Abşeron arasındakı fərqlər ikincinin xeyrinə daha da dərinləşmişdir. Əgər 90-cı illərə qədər kənd yerlərinin, xüsusən də dağlıq rayonların kiçik və orta şəhərlərinin nisbətən sürətlə sosial-iqtisadi inkişaf etdirilməsi siyasəti hesabına əhalinin əsas məskunlaşma arealları arasındakı fərqlər azal-

mağa meyill edirdisə, mürəkkəbləşən ictimai-siyasi ab-havanın fonunda bu məsələlər, demək olar ki, kortəbii xarakter almış, idarəolunmaz hala gəlmişdir. Ölkənin əhali və sənaye potensialının əhəmiyyətli payı cəmlənmiş Abşeron iqtisadi rayonunda demoqrafik təzyiq daha da artmış, burada istehsalın xüsusi çəkisi nəinki azalmış, ümumi ölkə üzrə məhsul istehsalının azalması fonunda onun payı daha da artmış və artmaqda davam etməkdədir. Ona görə də Azərbaycan Respublikasının strateji, geosiyasi, iqtisadi-coğrafi və hərbi-siyasi mənafeyinə uyğun məskunlaşma siyasəti həyata keçirilməlidir. Regionların sosial-iqtisadi inkişaf tempi və istiqamətləri əhalinin yerləşməsinin və məskunlaşdırılmasının təkmilləşdirilməsinə səbəb olmaqla yuxarıda adı çəkilən strateji mənafelərə uyğun həyata keçirilməlidir. Digər tərəfdən, yaddan çıxarmaq olmaz ki, zaman-zaman o qədər torpaqlar itirilmişdir ki, artıq Azərbaycan Respublikası aztorpaqlı, əhalisi ifrat məskunlaşmış ölkəyə çevrilmişdir. Hazırda (2005-ci il) hər 1 kv.km-ə düşən əhalinin sayı 96 nəfərdir, hər nəfərə 0,57 ha kənd təsərrüfatına yararlı torpaq, 0,21 hektar əkin sahəsi düşür. Bu rəqəmlər isə müvafiq orta dünya göstəricilərindən çox aşağıdır. Məsələn, dünyada hər nəfərə 0,24, ABŞ-da isə 0,8 ha əkin sahəsi düşür. İşğal olunmuş rayonların təsərrüfat dövriyyəsindən çıxmasını, təcavüzkar Ermənistanla həmsərhəd olan bölgələrdə də təsərrüfat fəaliyyəti ilə tam məşğul oluna blinməməsi, torpaqların şoranlaşması, bataqlıqlaşma və eroziyanın vurduğu ziyanları da nəzərə alsaq, vəziyyətin nə dərəcədə gərgin olduğu aydın görünər. Bununla yanaşı, yeni quruculuq işləri ilə əlaqədar, mütəmadi olaraq əhəmiyyətli miqdarada qiymətli, məhsuldar torpaq sahələri kənd təsərrüfatı dövrüyyəsindən çıxır, tikinti və yollar altına verilir. Ona görə səmərəli regional məskunlaşma siyasəti həyata keçirməklə yanaşı, bütün inzibati bölgü səviyyələrində daxili ərazi potensialından da maksimum səmərəli istifadə edilməlidir. Yeni tikintilər, yollar məhsuldarlığı, münbitliyi yüksək olan torpaqları mümkün qədər əhatə etməməlidir. Yaşayış məntəqələri daxilində olan müxtəlif təyinatlı anbarlar, qarajlar və s. kimi insanların uzun müddətə qalması nəzərdə tutulmayan təsərrüfat və sosial infrastruktur obyektləri yer altında yerləşdirmək məqsədəuyğundur. Onların tikintisi əlavə vəsait tələb etsə də, torpağa qənaət etmək baxımından bunu həyata keçirmək lazımdır. Relyef şəraiti təpəli, meyilli olan yaşayış məntəqələrində belə təyinatlı tikintilərin aparılması daha asandır və iqtisadi cəhətdən düzən relyefə malik olan məntəqələrdən daha ucuz başa gələr. Bu baxımdan Bakı şəhəri və Abşeronun əksər yaşayış məntəqələri böyük imkanlara malikdir. Həm də əhalinin ifrat dərəcədə cəmləndiyi və cəmlənməkdə davam etdiyi, torpağın qiymətinin günbəgün artdığı paytaxt regionunda amfiteatr relyef forması ilə əlaqədar yeraltı tikintilərin genişləndirilməsi zəruridir və nisbətən ucuz başa gələndir. Çox təəssüf ki, neft-qaz sənayesinin güclü inkişafı və onunla bağlı olan xarici sərmayələrin əsasən bu regiyona qoyuluşu tikinti-quruculuq işlərinin, xüsusən də yaşayış massivlərinin genişləndirilməsi ilə müşayiət olunsa da, nəinki yuxarıda adı çəkilən yeraltı tikililərin aparılması ilə getmir, həm də xaotik aparılır, Bakının paytaxt statusuna uyğun inkişafına və estetik görkəminə xələl gətirir. Bir sıra sosial infrastruktur obyektlərin fəaliyyətini çətinləşdirir, müxtəlif xidmətlərin təşkilini əhəmiyyətli dərəcədə əngəlləyir. Binaların torpaqdan maksimum faydalanmaq məqsədi ilə sıx və xaotik yerləşdirilməsi atmosfer sirkulyasiyasını da pozur, əhalinin sağlamlığı üçün ciddi təhlükə yaradır və s. Binalar tikilərkən Abşeron üçün üstünlük təşkil edən xəzri və gilavar küləklərinin sirkulyasiyasına şəraitin saxlanması nəzərə alınmalı, bir bina digərininin kölgəsində qalmamalı, relyef şəraitinə uyğun dənizə və ya ətrafa görünüş bağlanmamalıdır. Yeni tikinti və yaşayış massivlərinin salınması, əhalinin asudə vaxtını yaxşı keçirmək, sosial tələbatların tam, harmonik ödənilməsi (məktəb, uşaq bağçaları, kiçik istirahət guşələri və s.) üçün infrastrukturların və yaşıllıq-sanitariya zonalarının mütləq yaradılması ilə müşayiət olunmalıdır. Təbii meşə-kol landşaftı olmayan Bakı aqlomerasiyası üçün yaşıllıqların – parkların azaldılması nəinki yolverilməzdir, ən azı əhalinin sağlamlığına ciddi təhlükə yaradan böyük cinayətdir. Məsələn, Bakının mərkəzində yerləşmiş keçmiş «Pioner», indiki «Sevil» parklarının ağaclarının qırılaraq yaşayış binaları və səfirliklərin inzibati binalarının tikilməsi düzgün deyildir. Halbuki bu ətraflarda və şəhərin başqa mərkəz hissələrində («Sovetski», «Xutor», «Alatava», «Kubinka» və s.) köhnə, uçuq-salxaq evlərdən ibarət böyük sahə tutan yaşayış massivləri mövcuddur. Onların yerində şəhərin baş planına uyğun yeni tikintilərin aparılması daha məqsədəuyğundur.

Ümumiyyətlə, Azərbaycan Respublikasında əhalinin təbii və iqtisadi-coğrafi rayonları

üzrə yerləşməsi və məskunlaşması xüsusiyyətləri, ərazi-əhali nisbətlərinin təhlili, əhalinin daha səmərəli məskunlaşdırılması istiqamətlərinin müəyyənləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Aşağıdakı cədvəldən göründüyü kimi, respublika əhalisinin əhəmiyyətli hissəsi **Böyük Qafqaz təbii vilayətində** cəmlənmişdir. Bu təbii vilayətin payına ölkə ərazisinin 31,6%-i düşdüyü halda, ümumi əhalinin 42,3% -i düşür. Burada 3529,4 min nəfər əhali yaşayır, bu əhali 17 şəhər, 109 qəsəbə və 1111 kənd yaşayış məntəqəsində məskunlaşmışdır. Əhalinin hər 1 kv.km-dəki, sıxlığı 129 nəfərdir, bu da müvafiq orta respublika səviyyəsindən 33 nəfər çoxdur. Lakin əhalinin daha sıx cəmləndiyi və cəmlənməkdə davam etdiyi Abşeron iqtisadi rayonudur. Burada ölkə əhalisinin 27%-i, Böyük Qafqaz təbii vilayətinin isə 63,8% əhalisi cəmlənmişdir. Əhalinin orta sıxlığı 416 nəfər olub, orta ölkə səviyyəsindən 4,3 dəfə çoxdur. Ona görə də bu iqtisadi rayonda əhalinin cəmlənməsi məhdudlaşdırılmalı, daxili ərazi potensialından maksimum səmərəli istifadə edilməli, ekoloji mühitin yaxşılaşdırılması işləri görülməldir. Yuxarıda bu haqda xeyli məlumat verilmişdir.

Bu təbii vilayət daxilində nisbətən ərazi potensialı yaxşı olan, əhalinin yerləşdirilməsi və məskunlaşdırılması üçün imkanın geniş olduğu **Dağlıq Şirvan iqtisadi rayonudur.** Bu iqtisadi rayonun payına ölkə ərazisinin 7,0%-i düşdüyü halda, əhalisinin 3,2%-i düşür. Əhalinin orta sıxlığı 44 nəfər olub, müvafiq orta ölkə səviyyəsindən 2,2 dəfə azdır. Əhali 3 şəhər, 8 qəsəbə, 272 kənddə məskunlaşmışdır. Bu iqtisadi rayonda əhalinin məskunlaşdırılması, hər şeydən əvvəl yerli, təbii artımın iqtisadi və sosial yönümlü tədbirlər hesabına yerlərdə saxlanılmasına nail olunmasıüçün dağlıq relyef və nisbətən çətin həyat şəraiti ilə əlaqədar buranın sakinlərinə müəyyən güzəştlərin tətbiq edilməsi vacibdir. Yanacaq-enerji təminatının davamlı və güzəştlərlə verilməsi, suvarma suyu ilə təchizatın yaxşılaşdırılması, yanar şist ehtiyatlarının istehsal dövriyyəsinə cəlb edilməsi, əməktutmlu emaledici sənaye sahələrinin yaradılması və s. yerli demoqrafik potensialın yerlərdə saxlanılmasına əsaslı kömək edə bilər. Məsələn, bu rayon əsasən dəmyə əkinçiliyi rayonu olsa da, əhali və kənd təsərrüfatının su təminatında çətinlik 62%, 25% isə pis vəziyyət kimi qiymətləndirilir.

Azərbaycanda ərazi üzrə əhalinin paylanması və məskunlaşması (01.01.2005)

| Təbii və iqtisadi-coğrafi rayonlar | Ərazisi, min kv.km | Xüsusi çəkisi, %-lə | Əhalisi, min nəfər | Xüsusi çəkisi, %-lə | Əhalinin sıxlığı (1 kv. km-ə düşür) | Yaşayış məntəqələri | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | Şəhər | Qəsəbə | Kənd |
| I Böyük Qafqaz | 27,4 | 31,6 | 3529,4 | 42,3 | 129 | 17 | 109 | 1111 |
| 1. Quba-Xaçmaz | 6,96 | 8,0 | 465,6 | 5,6 | 67 | 6 | 18 | 474 |
| 2. Abşeron | 5,42 | 6,3 | 2253,3 | 27,0 | 416 | 2 | 78 | 31 |
| 3. Dağlıq Şirvan | 6,06 | 7,0 | 266,4 | 3,2 | 44 | 3 | 8 | 272 |
| 4. Şəki-Zaqatala | 8,96 | 10,3 | 544,1 | 6,5 | 61 | 6 | 5 | 334 |
| II Kiçik Qafqaz | 26,12 | 30,2 | 1953,8 | 23,4 | 74,8 | 24 | 52 | 1479 |
| 5. Gəncə-Qazax | 12,48 | 14,4 | 1124,0 | 13,5 | 91 | 11 | 33 | 524 |
| 6. Yuxarı Qarabağ | 7,24 | 8,4 | 617,3 | 7,4 | 85 | 9 | 13 | 519 |
| 7. Kəlbəcər-Laçın | 6,4 | 7,4 | 212,5 | 2,5 | 33 | 4 | 6 | 436 |
| III Aran | 21,43 | 24,8 | 1711,5 | 20,5 | 80 | 18 | 39 | 792 |
| 8. Aran | 21,43 | 24,8 | 1711,5 | 20,5 | 80 | 18 | 39 | 792 |
| IV Lənkəran | 6,07 | 7,0 | 779,7 | 9,3 | 128 | 6 | 11 | 637 |
| 9. Lənkəran-Astara | 6,07 | 7,0 | 779,7 | 9,3 | 128 | 6 | 11 | 637 |
| V Naxçıvan MR | 5,5 | 6,4 | 372,9 | 4,5 | 68 | 4 | 4 | 208 |
| 10. Naxçıvan | 5,5 | 6,4 | 372,9 | 4,5 | 68 | 4 | 4 | 208 |
| Azərbaycan Respublikası | 86,6 | 100 | 8347,3 | 100 | 96 | 69 | 215 | 4227 |

Cədvəlin tərtibində istifadə edilmiş ədəbiyyat: Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması. 1999-cu il. I hissə. 2000. Bakı, Azərbaycanın əhalisi (statistik bülleten) 2005. Bakı.

Böyük Qafqaz təbii vilayətində əhalinin yerləşməsi və məskunlaşması baxımından ərazi potensialı nisbətən yaxşı olan üçüncü bölgə **Quba-Xaçmaz iqtisadi rayonudur**. Bu rayonun payına ümumi ölkə ərazisinin 8,0%-i düşdüyü halda, əhalisinin 5,6%-i düşür. Əhalinin orta sıxlığı orta respublika səviyyəsindən 29 nəfər az olub, 67 nəfər təşkil edir. Çox əlverişli iqtisadi-coğrafi mövqeyə, təbii-coğrafi şəraitə malik olan bu iqtisadi rayonda 465,6 min nəfər əhali yaşayır. Burada əhali 6 şəhər, 18 qəsəbə, 474 kənddə məskunlaşmışdır. Mövcud və artan demoqrafik potensialın sosial-iqtisadi şəraitin yaxşılaşdırılması hesabına yerlərdə saxlanılması əhalinin ərazi təşkilinin əsas amili olmalıdır. Ərazi potensiyalı daha böyük olan, dağlıq rayonlar olan Qusar və Qubada əhalinin yerlərdə qalması üçün dövlət tərəfindən müəyyən güzəştlərin verilməsi məqsədəuyğundur. Daha hündürdə yerləşən, ekstremal təbii şəraitli kəndlər üçün xüsusi güzəştlərin verilməsini nəzərdə tutan status müəyyənləşdirilməlidir.

Böyük Qafqaz təbii vilayətində əhalinin perspektiv məskunlaşması üçün ərazi potensialı nisbətən yaxşı olan ikinci **iqtisadi rayon Şəki-Zaqataladır**. Bu iqtisadi rayonun payına ölkə ərazisinin 10,3%-i, əhalisinin isə 6,5%-i düşür. Əhalinin hər 1 kv.km-dəki orta sıxlığı 61 nəfər olub, orta respublika səviyyəsindən 1,5 dəfə azdır. Əhali 6 şəhər, 5 qəsəbə, 334 kənddə məskunlaşmışdır.

Əhalinin bu iqtisadi rayonda perspektiv məskunlaşdırılması mövcud və artan insan potensialının yerlərdə saxlanılması olmalıdır. Şəki şəhərinin regional mərkəz kimi daha sürətli sosial-iqtisadi inkişafının təmin edilməsi olmalıdır. Şəki təkcə inzibati tabeliyində olan yaşayış məntəqələrinin deyil, bütün iqtisadi rayonun məskunlaşma sisteminin istinad-dayaq karkasını təşkil etməlidir. Belə bir funksiyanı yerinə yetirməsi üçün isə şəhər güclü sosial-iqtisadi bazaya malik olmalıdır.

Şəki şəhəri sərhəd regionun əsas mərkəzi kimi də güclü inkişaf etdirilməli, müasir əməktutumlu, mütərəqqi emaledici şəhəryaradıcı bazaya malik olmalıdır. Təkcə əhalinin əməkyaşlı sayına uyğun yox, həm də cins, yaş tərkibinə müvafiq istehsal infrastrukturu yaradılmalıdır. Ən əsası isə Şəki şəhərinin sosial-iqtisadi bazası və inkişafı onun demoqrafik inkişafını əhəmiyyətli dərəcədə qabaqlamalıdır.

Əhalinin ifrat dərəcədə cəmləndiyi və cəmlənməkdə davam etidiyi, yüksək səviyyədə urbanizasiyalaşan (daha çox isə «yalançı urbanizasiyalaşan») Abşeron iqtisadi rayonunda əhalinin cəmlənməsi məhdudlaşdırılmalı, ərazisindən maksimum səmərəli istifadə edilməlidir. Çoxlu işçi qüvvəsi cəlb edən, kənardan – regionlardan buraya əhali axıcılığına səbəb olan böyük sənaye müəssisələrinin yaradılması məqsədəuyğun deyildir. Məsələn, Sumqayıt şəhərinin yaxınlığında Yeni «sənaye zonası»nın salınması ideyası bu baxımdan düzgün deyildir. Bu tipli «sənaye zonaları»nın və ya «azad iqtisadi zonalar»ın digər regionlarda yaradılması isə əksinə, paytaxt regionuna əhali axıcılığını azaldar, demoqrafik təzyiqi yüngülləşdirmiş olar, ekoloji mühiti sağlamlaşdırmağa, sosial infrastrukturu yaxşılaşdırmağa kömək edər.

Azərbaycan Respublikasında **Kiçik Qafqaz təbii vilayətinin** payına ölkə ərazisinin 30,2%-i, əhalisinin 23,4%-i düşür. Burada yaşayan əhali 24 şəhər, 52 qəsəbə və 1479 kənddə məskunlaşmışdır. Cədvəldən göründüyü kimi, əhalinin hər 1 kv. km-dəki sıxlığı təqribən 75 nəfər olub, orta respublika səviyyəsindən xeyli aşağıdır

Kiçik Qafqaz təbii vilayətində əhalinin zəif məskunlaşdığı, əhalinin perspektiv məskunlaşdırılması üçün ərazi potensiyalı daha yaxşı olan **Kəlbəcər-Laçın iqtisadi** rayonudur. Bu iqtisadi rayonun payına 7,4% ərazi düşdüyü halda, burada ölkə əhalisinin 2,5%-i yaşayır. Dağlıq relyef, iqlim şəraitinin sərt olması, Ermənistanın təcavüzünə dəfələrlə məruz qalması nəticəsində zəif məskunlaşmış bu regionda əhalinin orta sıxlığı hər kv.km-də 33 nəfər təşkil edir. Bu da orta respublika səviyyəsindən 3 dəfəyə qədər azdır. Ermənistanın işğalı altında olan bu iqtisadi rayonda əhali 4 şəhər, 6 qəsəbə və 436 kənddə məskunlaşmışdı. Hazırda (2006-cı il) bu yaşayış məntəqələri ermənilər tərəfindən dağıdılmış, yerlə-yeksan edilmiş, az-çox yararlı tikinti materialları sökülüb Ermənistana daşınmışdır.

Kəlbəcər-Laçın iqtisadi rayonu həmişə əsas kənd təsərrüfatı, xüsusən də mühüm heyvandarlıq rayonu olmuşdur. Kənd təsərrüfatı isə əməktutumlu olmadığından əhalinin, xüsusən də əməkyaşlı cavan işçi qüvvəsinin yerlərdə saxlanılması həmişə problem yaratmışdır. Artan demoqrafik potensialın əhəmiyyətli hissəsi buradan kənarlara miqrasiya etməli olmuşdur. Ona görə də ənənəvi kənd təsərrüfatı sahələrini inkişaf etdirməklə yanaşı, əməktutumlu emaledici kiçik və orta həcmli sənaye müəssisələrinin də təşkil edilməsi məqsədəuyğundur. Belə müəssisələrin təkcə inzibati rayon mərkəzlərində, qəsəbələrdə deyil, həm də nisbətən böyük kənd-

lərdə yerləşdirilməsi sərfəlidir. Bunlar yeyinti və yüngül sənaye təyinatlı müəssisələr olmaqla bərabər, həm də yerli sənaye əhəmiyyətli mineral-xammal ehtiyatlarının kompleks, son məhsula kimi tam emalına əsaslanan mini-zavod və fabriklər olmalıdır. Məsələn, Kəlbəcər və Zəngilan qızıl yataqlarının istismarı zamanı bu xammalın əsasında bəzi inzibati rayon mərkəzlərində (məs. Laçın, Kəlbəcər şəhərlərində) zərgərlik məmulatı müəssisələri yaratmaq olar. Yerli civələn, (Ağyataq, Löhçay), travertin, perlit ehtiyatlarının kompleks emalı, mineral və müalicəvi bulaqlar, saf dağ havası əsasında kurort-turizm müəssisələrinin yaradılması da əhalinin yerlərdə məskunlaşmasını iqtisadi cəhətdən stimullaşdıran əsaslı amillər ola bilər.

Ümumiyyətlə, bu iqtisadi rayonda əhalinin yerləşdirilməsi və məskunlaşdırılmasına ərazinin təcavüzkar Ermənistanla separatçı Qarabağ ermənilər arasındakı coğrafi mövqeyi konteksində baxılmalıdır. Mürəkkəb və strateji geosiyasi mövqeyi baxımından burada əhalinin məskunlaşdırılması və yerləşdirilməsi dövlət səviyyəsində həyata keçirilən sosial-iqtisadi tədbirlər və xüsusi güzəştlər hesabına stimullaşdırılmalıdır.

**Yuxarı Qarabağ iqtisadi rayonunun** mənimsənilmə və əhalinin məskunlaşması üçün ərazi potensialı nisbətən yaxşı olsa da, müharibə şəraitinin mövcudlüğu, olması, ərazinin çox hissəsinin işğal altında qalması əhalinin səmərəli ərazi təşkilini mümkünsüz edir. Bu iqtisadi rayonun payına 8,4% ölkə ərazisi düşdüyü halda, burada ümumi əhalinin 7,4%-i cəmlənmişdir. Əhalinin sıxlığı orta respublika göstəricisindən (96 nəfər) az olub, 85 nəfər təşkil edir. Əhali 9 şəhər, 13 qəsəbə, 519 kənddə məskunlaşmışdır. Azərbaycanlılara məxsus işğal olunmuş bütün yaşayış məntəqələri ermənilər tərəfindən talan edilmiş, yandırılmış xarabalığa çevrilmişdir. Sərhəddə yerləşən yaşayış məntəqələri isə mütəmadi olaraq Ermənistan ordusu tərəfindən atəşə məruz qalmaqdadır.

Kiçik Qafqaz təbii vilayətinin, o cümlədən respublikanın da, əhalisi sıx məskunlaşan, ərazi potensialı nisbətən məhdud olan iqtisadi-coğrafi rayonu **Gəncə-Qazaxdır**. Zaman-zaman Ermənistanın təcavüzünə məruz qalan, tarixi ərazisinin (Göyçə mahalı, Dilican nahiyəsi və s.) xeyli hissəsinin adı çəkilən dövlət tərəfindən işğal olunması və öz dədə-baba yurdundan deportasiyaya məruz qalan yüksək demoqrafik potensiallı soydaşlarımızın da bu bölgədə məskunlaşması sıx məskunlaşmaya səbəb olmuşdur. Əhalinin daha sıx məskunlaşdığı və daha intensiv məskunlaşmaqda davam etdiyi Gəncə-Qazax maili düzənliyi, zəif məskunlaşdığı isə dağlıq hissələr, xüsusilə Ermənistanla həmsərhəd yerlər və Ceyrançöldür. Ümumiyyətlə, bu iqtisadi rayonun payına ölkə ərazisinin 14,4%-i düşdüyü halda, ümumi əhalinin 13,5%-i burada yaşayır. Əhalinin orta sıxlığı hər 1 kv.km-də 91 nəfər olub, orta respublika səviyyəsinə yaxındır. Ümumiyyətlə, əhalinin cəmlənmə, məskunlaşma səviyyəsinə görə Gəncə-Qazax Abşeron və Lənkəran-Astara iqtisadi rayonlarından sonra üçüncü yeri tutur. İqtisadi rayonun əhalisi 11 şəhər, 33 qəsəbə və 524 kənddə məskunlaşmışdır.

Gəncə-Qazax iqtisadi rayonunun perspektiv məskunlaşdırılmasını yerli demoqrafik potensialın sosial-iqtisadi tədbirlər hesabına yerlərdə saxlanılması, dağlıq, xüsusilə də Ermənistanla həmsərhəd ərazilərin intensiv mənimsənilməsi əhalinin burada güzəştli kompleks tədbirlər hesabına saxlanılması axıcılığının dayandırılması təşkil etməlidir. Sərhəd kəndlərinə xüsusi status verilməli, orada yaşayan əhalinin normal yaşaması, təsərrüfat fəaliyyətinin təmin edilməsi stimullaşdırılmalıdır.

Strateji geosiyasi mövqeyini və Borçalıda yaşayan soydaşlarımızın mənəvi dayağı rolunu da nəzərə alaraq bu bölgənin, hər şeydən əvvəl, yanacaq-enerji təminatı güzəştli (qiyməti) və davamlı olmalıdır. Su təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmalıdır. Məsələn, hələ 2001-ci ildə aparılan hesablamalar göstərir ki, bu iqtisadi rayonda su ilə təminatda çətinliklər 57,9%, pis təminat 19,1%, yaxşı təminat isə 23,0% təşkil etmişdir.

Respublikanın sahəsinə görə ən böyük iqtisadi-coğrafi rayonu olan **Aranın** perspektiv məskunlaşdırılması və mənimsənilməsi üçün ərazi potensialı da genişdir. Bu iqtisadi rayon əhalisinin sayına görə respublikanın ikinci rayonu olub, burada ölkə əhalisinin 20,5%-i yaşayır. Onun payına isə ümumi ərazinin 24,8%-i düşür. İqtisadi rayonun əhalisi 18 şəhər, 39 qəsəbə və 792 kənddə məskunlaşmışdır. Əhalinin hər 1 kv. km-dəki orta sıxlığı orta respublika səviyyəsindən aşağı olub, 80 nəfər təşkil edir. Əhali daha sıx Mingəçevir-Yevlax (148 min nəfər) və Əli Bayramlı-Salyan (108,0 min nəfər) sənaye qovşaqlarında cəmləşnmişdir. Bu məskunlaşma areallarında əhalinin sıxlığı orta iqtisadi rayon səviyyəsindən xeyli yüksəkdir.

Aran iqtisadi rayonunda əhalinin perspektiv məskunlaşdırılması və ərazinin mənimsənil-

məsi kompleks meliorasiya tədbirlərinin həyata keçirilməsi ilə sıx əlaqədardır. Qrunt sularının səviyyəsinin aşağı salınması hesabına şoranlaşmanın, bataqlıqlaşmanın qarşısının alınması, Kür çayının məcrasında mütəmadi olaraq hidrotexniki tədbirlərin görülməsilə axımın sürətləndirilməsi hesabına ətraf yaşayış məntəqələrin qrunt sularından qorunması, sənaye tullantıları ilə çirklənmiş torpaqların rekultivasiyası, münbitliyinin artırılması, suvarma suyundan qənaətlə istifadə və s. əhalinin səmərəli ərazi təşkilinə müsbət təsir edən amillərdəndir. Düzən relyef, əlverişli torpaq-iqlim şəraiti və iqtisadi-coğrafi mövqe, nisbətən yüksək demoqrafik potensial ərazinin mənimsənilməsi və məskunlaşması üçün geniş imkanlar açsa da, torpaqdan maksimum qənaətlə, yaşayış məntəqələrinin daxili ərazi potensialından səmərəli istifadə edilməlidir. Yeni tikililər, çəkilən yollar mümkün qədər əkinə yararlı torpaqları tutmamalı və ya münbitliyi zəif olan az yararlı yerləri əhatə etməlidir.

Azərbaycan Respublikasının iqtisadi-coğrafi rayonları arasında Abşerondan sonra əhalinin sıx məskunlaşdığı ikinci bölgə **Lənkəran-Astaradır**. Ölkənin bütün regionları ilə müqayisədə burada həmişə əhalinin yüksək təbii artımı, ərazinin nisbətən məhdudluğu, əməktutumlu tərəvəzçiliyin inkişafı, əlverişli iqtisadi-coğrafi mövqe və s. burada əhalinin sıx məskunlaşmasına, intensiv mənimsənilmə areallarının yaranmasına səbəb olmuşdur. İqtisadi rayonun payına ölkə ərazisinin 7,0%-i düşdüyü halda, burada ümumi respublika əhalisinin 9,3%-i cəmlənmişdir. Əhalinin hər 1 kv.km-dəki sıxlığı 128 nəfər olub, müvafiq orta respublika səviyyəsindən 32 nəfər çoxdur. Əhali 6 şəhər, 11 qəsəbə, 637 kənddə məskunlaşmışdır. Yaşayış məntəqələrinin sıxlığı orta respublika səviyyəsindən əhəmiyyətli dərəcədə çoxdur. Əgər ümumi Azərbaycan üzrə hər min kv. km-ə 49 kənd düşürsə, burada həmin ərazi vahidinə 104 kənd düşür. Bu da orta respublika səviyyəsindən 2 dəfədən də artıq deməkdir. Lənkəran ovalığı, dağətəyi ərazilər əhalinin ifrat, dağlıq yerlər isə (Lerik, Yardımlı rayonlarının ərazisi) nisbətən zəif məskunlaşdığı sahələrdir.

Lənkəran-Astara iqtisadi raoynunda əhalinin perspektiv məskunlaşdırılması Lənkəran ovalığı və dağətəyi ərazilərdə əhalinin cəmlənməsinin məhdudlaşdırılmasına, dağlıq ərazilərdə isə stimullaşdırılmasına istiqamətləndirilməlidir. Əhalinin ifrat məskunlaşma arealları daxilində yerdən (sahədən) maksimum səmərəli və qənaətlə istifadə edilməli, əhalinin uzun müddət qalması nəzərdə tutulmayan yeraltı tikililərə (məsələn, anbarlar, qarajlar, soyuducuxanalar) üstünlük verilməli, yaşayış məntəqələrinin daxili ərazi potensialından maksimum qənaətlə istifadə edilməlidir. Relyef şəraitinin daha çox imkan verdiyi dağlıq və dağətəyi yerlərdə yeraltı tikililərə üstünlük verilməlidir. Belə təyinatlı tikililər nisbətən baha başa gəlsə də, son nəticədə yerə (torpağa) qənaət edildiyindən iqtisadi cəhətdən sərfəlidir. Zənnimizcə, yeraltı tikililər həm də dövlət tərəfindən maddi və iqtisadi cəhətdən stimullaşdırılmalı, onların inkişafı üçün müəyyən güzəştlər verilməli, yardımlar edilməlidir.

Uzun müddət Ermənistan tərəfindən blokadada saxlanılana, təcavüzə məruz qalan, Azərbaycanla birbaşa əlaqəsi olmayan, hazırda da, gələcəkdə də ərazi iddiasında olan erməni vəhşiləri ilə qonşuluqda yaşamağa məcbur olan Naxçıvan MR-də əhalinin perspektiv məskunlaşdırılmasına, ərazi təşkilinə xüsusi yanaşma tələb olunur. Məhz uzun müddət Ermənistan tərəfindən blokadada olmasının və təzavüzə məruz qalmasının, nəticəsidir ki, burada əhalinin təbii artımı əhəmiyyətli dərəcədə aşağı düşmüş, kənarlara axıcılığı çoxalmış, əhalinin say artımı tempi azalmışdır. Əhalinin sıxlığı orta respublika səviyyəsindən xeyli aşağıdır. Hazırda Naxçıvan MR-in payına ölkə ərazisinin 6,4%-i düşdüyü halda, ümumi əhalinin 4,5%-i düşür. Muxtar Respublikanın əhalisi 4 şəhər, 4 qəsəbə və 208 kənddə məskunlaşmışdır. Əhalinin əsas məskunlaşma arealları Şərur-Ordubad düzənliyi və çay vadiləridir. Dağlıq relyef, iqlim şəraitinin sərtliyi və quraqlıq ərazinin mənimsənilməsini və məskunlaşdırılmasını məhdudlaşdıran amillər olsa da, burada perspektiv məskunlaşma üçün yeraltı və yerüstü sərvətlər boldur, ərazi potensialı çoxdur. Hər şeydən əvvəl isə, strateji və mürəkkəb geosiyasi mövqeyi ilə bağlı Naxçıvan Muxtar Respublikasında əhalinin demoqrafik inkişafı və onun yerlərdə saxlanılması, məskunlaşdırılması dövlət tərəfindən həmişə nəzarətdə olmalı və güzəştli sosial-iqtisadi tədbirlər hesabına stimullaşdırılmalıdır. Muxtar respublikanın etibarlı və davamlı yanacaq-enerji təminatı olmalıdır. Bunun üçün isə coğrafi cəhətdən muxtar respublikadan çox da uzaqdan keçməyən Bakı-Tiflis-Ərzurum qaz kəmərindən (Türkiyə ərazisindən) bura xəttin çəkilməsi böyük rol oynamış olardı. Təbii qaz əsasında hətta müxtəlif məhsullar istehsal edən qaz emalı müəssələri də tikmək və müxtəlif həcimli istilik elektrik stansiyaları da

yaratmaq olar. Bu da əlavə iş yerlərinin açılmasına, əhalinin həyat səviyyəsinin yaxşılaşmasına səbəb olmaqla, əhalinin yerlərdə qalmasına, demoqrafik inkişafa müsbət təsir etmiş olar.

Ümumiyyətlə, Azərbaycan Respublikasında əhalinin məskunlaşması və ərazinin mənimsənilməsinin regional təhlili və əsas iqtisadi-coğrafi istiqamətlərinin müəyyənləşdirilməsi aşağıdakı nəticələrə gəlməyə əsas verir:

1. Perspektiv mənimsənilmə üçün ərazi potensialı məhdud olan, ifrat məskunlaşmış iqtisadi-coğrafi rayonlar: Abşeron, Lənkəran-Astara, Gəncə-Qazax.
2. Ərazi potensiyalı orta respublika səviyyəsindən nisbətən yaxşı olan iqtisadi-coğrafi rayonlar: Aran, Yuxarı Qarabağ.
3. Mənimsənilmə və perspektiv məskunlaşma üçün ərazi potensiyalı daha yaxşı olan iqtisadi-coğrafi rayonlar: Kəlbəcər-Laçın, Şəki-Zaqatala, Dağlıq Şirvan, Quba-Xaçmaz, Naxçıvan MR.

## ƏDƏBİYYAT

MEHRƏLİYEV, E.Q., ƏYYUBOV, N.H., SADIQOV, M.O. 1988. Azərbaycan SSR-də əhalinin məskunlaşması məsələləri. Bakı. 192 .

Azərbaycan Respublikasının konstruktiv coğrafiyası. 2000.

ƏFƏNDİYEV, V. 2002. Urbanizasiya və Azərbaycanın şəhər yaşayış məntəqələri. Bakı. 395 .

Azərbaycanın regionları, 2005.Bakı. 713.

Azərbaycanın demoqrafik göstəriciləri (statistik məcmuə). 2006. Bakı. 427.

Azərbaycanda ərzaq təhlükəsizliyi. 2005,623 s.

БУДАГОВ, Б.А., ЭЙЮБОВ, Н.Г. 2005. Население и расселение в аридной зоне Азербайджана. *Проблемы освоения пустынь,*1, 15-16.

***Məqaləyə c.e.n. S.K.Nağıyev rəy vermişdir***